

Ankaranın Bakını dəstəkləməsi İrəvanı narahat edib

Türkiyə müdafiə naziri Nurəddin Caniklinin Bakıya səfəri Ermənistanın siyasi elitasını narahat edib, hətta bir qədər qorxudub.

İrəvanda bildiriblər ki, yüksək çinli qonağın bəyanatı faktiki olaraq Dağlıq Qarabağda hərbi əməliyyatların başlamasına çağırışdır. Sarkisyan hakimiyyətinə yaxın olan politoloqlar səs-səsə verərək bildiriblər ki, Ankara hərbi çağırışları ilə Tehran və Moskvanın ünvanın sınaq şarları buraxır.

Söhbət Qarabağ probleminin həllindən gedir. Ancaq Türkiyənin bu uzun sürən münaqişə barədə söylədikləri Ermənistanda siyasi demoqoqiya kimi qələmə verilir. İrəvanda bəzi siyasi xadimlər hətta iddia edirlər ki, İran və Rusiyanın danışıqlar prosesi barədə maraqlanmağa Türkiyədən daha çox haqqı var, çünki bu ölkələr münaqişə regionu ilə birbaşa sərhədlərə malikdirlər.

Rusiyanın münaqişə zonası ilə birbaşa sərhədinin olması hardan çıxdı? İrəvanda yenə də dünya ictimaiyyətinə çağırışlar səsləndirib təcavüzkarları dayandırmağa yalvarırlar. Bu zaman təcavüzkar deyəndə tək Azərbaycanı deyil, Türkiyəni də nəzərdə tuturlar. Azərbaycana qardaş Türkiyənin Bakını işğal edilmiş torpaqların azad edilməsi məsələsində dəstəkləməsi Serj

Sarkisyanı özündən çıxıb.

Buna görə də Ermənistan prezidenti Türkiyə ilə bağlanmış protokolları ləğv etməklə hədələyir. Hətta yerli ekspertlər sanır ki, bu, İrəvana daha çox zərər vura bilər.

Ermənistan siyasətçilərini ən çox isə Türkiyə və Rusiya münasibətlərinin yaxşılaşması qorxudur. Moskvadan həm siyasi, həm də iqtisadi baxımdan asılı olan İrəvan çox qorxur ki, Ankara gec-tez Moskvanı əmin edə biləcək ki, İrəvanın Cənubi Qafqazda ikinci erməni dövləti yaratmaq tamahını cilovlamaq lazımdır.

Ermənistan rəhbərliyi artıq on illərdir ki, öz xalqında Türkiyəyə və Azərbaycana nifrət yaratmağa çalışır. Amma bu, ermənilərin alver məqsədi ilə xalq istehlak malları almaq üçün daima Türkiyə getmək istəyinə mane ola bilmir.

Ermənistanın kənd təsərrüfatı rayonları artıq çoxdan alışıblar ki, Türkiyədən tərəvəz alıb onları Ermənistan malı adı altında Rusiyaya göndərsinlər. Əks halda yaşaya bilməzlər. Buna görə bəzi politoloqlar yazırlar ki, əgər Ankara sərhədləri tam bağlayarsa, Ermənistanda həyat 10 dəfə pisləşər.